# AZƏRBAYCAN DİLÇİLİYİ SİMALARDA

Filologiya elmləri doktoru, professor Sayalı Sadıqovanın "Azərbaycan dilçiliyi simalarda" (Bakı, "Apostrof ", 2021, 1098 s.) fundamental tədqiqat əsəri nəşr olunmuşdur. Kitabın elmi redaktoru professor Q.Kazımov, A.Babayev, rəyçilər professor İ.Məmmədli, İ.Kazımovdur. Əsərdə XIX əsrin əvvəllərindən müasir dövrümüzə qədər dilçilik elmini inkişaf etdirən ziyalıların dilçilik görüşləri, mühüm dilçilik problemlərini tədqiq edən, dilçilik məktəbi yaradan, dilin tarixini, qədim abidələrini, tarixi qaynaqlarını tədqiq edib üzə çıxarılmasında, beynəlxalq səviyyədə tanınmasında və nüfuz qazanmasında, eləcə də dünya dilçiliyində yeni sahələrin tədqiqində mühüm rolu olan Azərbaycan alimlərinin həyat və yaradıcılığı haqqında geniş məlumat verilir. Dilçi alimlərin həyat və yaradıcılığının əsas mərhələləri təhlil edilərək dilçilik elminin inkişaf tarixi və əsas istiqamətləri müəyyənləşdirilir. Azərbaycanda dilçilik elminin inkişafı ilə bağlı dilçilər tərəfindən aparılan tədqiqatlar şərh edilir, ilk elmi təşkilatların və elmi idarəetmə qurumlarının yaradılmasının dilçilik tədqiqatlarının aparılmasında rolu aydınlaşdırılır.

Azərbaycan dilçiləri haqqında ilk dəfə 1970-ci ildə A.Qurbanov, B.İbrahimov tərəfindən "Azərbaycan dilçiləri" (Bakı, 1970,134 səh.) kitabı nəşr olunmuşdur. Kitabın ön sözündə qeyd edildiyi kimi, dilçilərin qısa həyatı öz əksini tapmışdır. Yazılır ki, "oxuculara təqdim olunan bu kitabçada müəyyən səbəblərdən dilçilərimizin hamısı əhatə olunmamışdır" (s.4). Hazırda isə ölkəmizdə dilçilik sahəsində fundamental araşdırmalar aparılır, dilçilik bir elm kimi müxtəlif istiqamətlərdə inkişaf edir. Dilçilikdə yeni istiqamət və sahələr formalaşmış, mətn dilçiliyi, nəzəri dilçilik, kompüter dilçiliyi, koqnitiv dilçilik, psixolinqvistika və paralinqvistikaya dair tədqiqatlar aparılır. Bu nəzərə alınaraq əsərdə Azərbaycan dilçiliyinin müxtəlif sahələrində çoxşaxəli yaradıcılığı, yenilikçi olması ilə diqqət mərkəzində olan alimlərin, görkəmli ziyalıların həyat və yaradıcılığı, elmə gətirdiyi yeniliklər öz əksini tapmışdır. Tədqiqat zamanı onların həyatı ilə bağlı məlumatların dəqiqliyi üçün arxiv sənədlərindən və alimlərin şəxsi sənədlərindən istifadə olunmuşdur. Əsər ön söz, giriş, "XIX-XX əsrin əvvəllərində Azərbaycan dilçiləri", "XX-XXI əsrlərdə Azərbaycan dilçiləri" bölmələrindən ibarətdir. Kitabın girişində dilçiliyin bir elm kimi inkişaf tarixi haqqında məlumat verilmişdir. Qeyd edildiyi kimi, xalqın tarixi onun dilində əks olunur, sözündə ifadə olunur. Azərbaycan dilçiləri zaman-zaman dövrün ziyalıları, tarixi şəxsiyyətləri kimi tədqiqatlar aparmışdır. Dövrün tələblərinə uyğun olaraq xalqın milli varlığını, onun mədəniyyətini, tarixini nəsillərdən-nəsillərə ötürən dilini tədqiq etmişlər. Bu nəzərə alınaraq əsərin giriş hissəsində Azərbaycan dilçiliyinin qədim tarixi haqqında məlumat verilmişdir. Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" (XI əsr), Əl Zəmahşarinin "Müqəddimat al-adab" (XIII əsr), Hüssaməddin Həsən Əbdülmömin oğlunun "Töhfeyi-Hüssam" (XIII əsr), Hinduşah Naxçivaninin "Əs-Sihah əl-əcəmiyyə"(XIII-XIV əsr), İbn Mühənnanın "Hilyətül-insan və Həlbətül - lisan" (XIII- XIV əsr), Mirzə Əli Mustafa oğlu Bakuinin "Təcrid-ül-lüğat" (XIX əsr), Şəmsəddin Sami bəyin "Qamus-ül-əlam" və "Qamusi-Türki" (XIX əsr), "Anonim ərəbcə-türkcə mənzum lüğət" (XIX əsr), Sultan Məcid Qənizadənin "Lüğəti-rusi və türki" (XIX əsrin axırları), Qarabəy Qarabəyovun "Qamusi-rusi" və "Türkcədən-ruscaya lüğət" (XIX əsr), Mirzə Kazım bəyin "Грамматика турецкого-татарского языка" (XIX əsr) əsərləri təhlil edilmiş və onların müəllifləri haqqında geniş məlumat verilmişdir. XVII-XIX əsrlərdə Məhəmmədtağı bəy Qaraqoyunlunun "Fərhəngi-türki", Təbrizli Hüseyn ibn Xələf Təbrizinin "Bürhane-qate", Mirzə Əli Mustafa oğlu Bakuinin "Təcrid-ül-lüğəti"ni, "Anonim ərəbcə-türkcə mənzum lüğət"i, Şəmsəddin Sami bəyin "Qamus-ül-əlam" və "Qamusi-Türki" lüğətlərinin, Sultan Məcid Qənizadənin "Lüğəti-rusi və türki" lüğətinin, Qarabəy Qarabəyovun "Türki-rusi lüğəti"nin və s. əsərlərin əsas məziyyətləri şərh olunmuşdur.

XIX əsrin axırı XX əsrin əvvəlləri Azərbaycan xalqının tarixində mürəkkəb ictimai-si-

yasi və mədəni hadisələrlə zəngin olan bir dövrdür. Yeni ictimai-siyasi görüşlər, elm və mədəniyyətin tərəqqisi, orta və ali məktəblərin, elmitədqiqat müəssisələrinin təşkili, mətbuatın sayının artması, dərsliklərin, elmi əsərlərin yazılması dilin ictimai funksiyasının genişlənməsinə təkan vermişdir. XIX əsrdən başlayaraq Azərbaycanın maarifçi və demokratik fikirli ziyalıları ana dilində məktəb acmış, bu məktəblər üçün dərsliklər tərtib etmiş, ana dilinin tədrisini yaxşılaşdırmaq üçün əlifba, orfoqrafiya, istilah və bu kimi bir sıra mühüm məsələləri həll etmək uğrunda çalışmışdır. Qeyd edildiyi kimi bu lüğətlər və qrammatikalar dilin lüğət tərkibi haqqında zəngin məlumat verir. Bu əsərlər sonradan nəşr olunan lüğətlər üçün, eləcə də dilçiliyin inkişafı üçün bir özül olmuşdur. Hər bir dilin lüğət tərkibi onun dilinin və tarixinin mədəni-mənəvi sərvətini özündə əks etdirir. Dilin bu mənəvi xəzinəsinin, sərvətinin toplanıb üzə çıxarılması dil mədəniyyəti baxımından mühüm hadisədir. Ona görə də XIX əsrin əvvəllərindən müasir dövrümüzə qədər Azərbaycan dilçilərinin, yəni müxtəlif istiqamətlərində tədqiqat aparan, dilçiliyin tarixini yaradan, ana dili ilə bağlı yeni dərsliklərin, lüğətlərin və sanballı elmi tədqiqatların aparan görkəmli alimlərin mühüm xidmətləri qeyd edilmişdir. Abbasqulu ağa Bakıxanovun qrammatika ilə bağlı "Qanuni-Qüdsi", Mirzə Kazım bəyin "Türk-tatar dilinin qrammatikası" və "Türk-tatar dilinin ümumi qrammatikası" əsərləri Azərbaycan dilinin Avropa dilləri qrammatikası səviyyəsində tədqiqinin ilk nümunələrini yaradan alimlər haqqında da məlumat verilmişdir.

Qeyd olunduğu kimi, XIX əsrdə Azərbaycan dilinə aid yazılmış dərsliklərin, dərs vəsaitlərinin əksəriyyəti rus dilində yazılmış və Azərbaycan dilini ruslara öyrətmək məqsədi daşımışdır. Azərbaycan dilində yazılmış və azərbaycanlılar üçün nəzərdə tutulmuş yeni tipli qrammatika kitabları da bu dövrdə yazılmışdır. Həmin əsərlər içərisində Azərbaycan dilçiliyi tarixində özünəməxsus yeri olan Mirzə Məhəmməd Əfşarın "Fənni-sərfi-türki" əsəri və həyatı tədqiq edilmişdir. Azərbaycan dilçiliyinin XIX əsrdən başlayaraq daha geniş vüsət alması, bu dövrdə yazılmış müxtəlif tədqiqat əsərləri, dərsliklər, lüğətlərin müəllifləri Mirzə Kazımbəy, Sultan Məcid Qənizadə, Məhəmməd Əfşar, Məhəmməd Tağı Sidqi, Firudin bəy Köçərli, Rəşid Bəy Əfəndiyev, Sultan Məcid Qənizadə kimi onlarla görkəmli maarifpərvər ziyalılar haqqında məlumat verilmişdir. XX əsrin əvvəllərində Məhəmmədağa Şahtaxtlı, Məhəmməd Tağı Sidqi, Mahmud bəy Mahmudbəyov, Rəşid bəy Əfəndiyev, Əli bəy Hüseynzadə, Abdulla bəy Əfəndizadənin yaradıcılıq istiqamətləri araşdırılmışdır. Qeyd olunduğu kimi Məhəmmədağa Şahtaxtlının dilçiliklə bağlı elmi fəaliyyətində əlifba islahatı mühüm yer tutur. O, bu sahədə məşhur mütəfəkkir Mirzə Fətəli Axundovun yolunu davam etdirmiş, əlifba islahatı ilə bağlı ilk dəyərli tədqiqat əsəri olan "Təkmilləşdirilmiş müsəlman əlifbeyi" kitabını 1879-cu ildə Tiflisdə nəşr etdirmişdir. Azərbaycan əlifbasının daha da sadələşdirilməsi, latın qrafikalı əlifbaya keçid sahəsindəki çoxillik səmərəli fəaliyyəti, çap etdirdiyi orijinal əlifba layihələri Məhəmmədağa Şahtaxtlının dilçilik sahəsində xidmətlərini əks etdirir. Göstərilir ki, Məhəmmədağa Şahtaxtlının maarifçilik ideyaları Şərq və Qərb təfəkkürünün sintezi ilə ümumiləşdirmələrdən yarandığına və bu umumiləşmədən Azərbaycan xalqının mentalitetinə uyğun təhsil proqramı müəyyənləşdirə bildiyinə görə bəşəridir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə maarif sisteminin formalaşması, Dövlət Universitetinin təsis edilməsi, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyəti, İstilah Komissiyasının yaradılması, 1932-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun bazasında müstəqil Dil, Ədəbiyyat və İncəsənət İnstitutu, 1936-cı ildə Ədəbiyyat və Dil İnstitutu, 1945-ci ildə Akademiyanın nəzdində Dilçilik İnstitutunun yaradılması Azərbaycan dilinin tədqiqini daha da sürətləndirmişdir. Bu illərdə Azərbaycan dilçi alimlərinin əvəzolunmaz xidmətləri elmi cəhətdən əsaslandırılaraq oxuculara təqdim olunur. Kitabda repressiya illərində sürgünə göndərilən, bu illərin qurbanı olan Xalid Səid Xocayev, Bəkir Çobanzadə, Abdulla Şərifov, Vəli Xuluflu, Hənəfi Zeynallı, Abdulla Tağızadə, İdris Həsənov kimi dilçilərin güllələnməsi səbəbləri və onların həyat və yaradıcılıq istiqamətləri təhlil edilmişdir. Bəkir Çobanzadə və Fərhad Ağazadənin "Türk qrameri", İdris Həsənov və Abdulla Şərifovun "Qramer", Xalid Səid Xocayevin Mahmud Kaşğari "Divanı"nın 1500 səhifəlik əlyazmasının müsadirə olunması və Azərbaycan dilçilərinin elmli, istedadlı, mənəviyyatlı təbəqəsinin çox böyük hissəsinin

məhv edilməsinin səbəbləri şərh edilmişdir. Dilçiliyin ən yeni və perspektivli sahələri ilə bağlı tədqiqat aparan Xalid Səid Xocayev, Fərhad Ağazadə, Abdulla Tağızadə, İdris Tağıyev, Abdulla Şərifov, Hənəfi Zeynallı və s. dilçilərin elmi irsi arxiv materialları əsasında yazılmışdır. İllərlə tədqiqat aparılaraq bu alimlərin həyatı, zəngin elmi yaradıcılıq irsi üzə çıxarılmışdır. Kitabda dilin lüğət tərkibi, fonetika, qrammatika haqqında tədqiqat aparan əsasən filologiya elmləri doktoru və professorların həyatı, yaradıcılığı haqqında müfəssəl məlumat verilir. Xüsusən, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri M.Şirəliyev, Ə.Orucov, Ə.Dəmirçizdə, A.Qurbanov, Z. Budaqova, A.Axundov, Z.Verdiyeva, T.Hacıyev, V.Məmmədəliyev, A.Bağırov, K.Abdullayev, N.Cəfərovun, M.Nağısoylu, Ə.Quliyevin həyat və yaradıcılığının mühüm məqamları ətraflı şəkildə araşdırılır.

Ana dilinin qorunması, inkişafı uğrunda mübarizə aparan, dilin keşiyində duran bu alimləri bir nöqtədə birləşdirən dilçilik problemləri ilə bağlı tədqiqatlar aparmasıdır. Tədqiqatdan aydın olur ki, onların araşdırmaları zəngin nəzəri, faktoloji xüsusiyyətlərinə, elmi üslubuna görə fərqlənir, fərdi düşüncə tərzi, özünəməxsusluğu ilə seçilir. Aydınlaşdırılır ki, bu illərdə ana dilində dərs deyən, dərsliklər yazan, əlifbanın dəyişdirilməsi uğrunda mübarizə aparan qabaqcıl maarifçilərimiz yazdıqları əsərləri, fəaliyyətləri ilə dilçilik elminin inkişafına təkan vermişdir. Tarix səhifələrində qorunub saxlanılan böyük pedaqoji təcrübələr, yazılmış dərsliklər, lüğətlər bu gün də öz əhəmiyyətini qoruyub saxlayır. Bununla da, əsərdə Azərbaycan dilinin tarixinin ilk səhifələrinə adı qızıl hərflərlə yazılmış maarif xadimlərinin həyat və fəaliyyəti, Azərbaycan dilini milli varlığın atributu hesab edərək onu inkişaf etdirən, dilçiliyin aktual problemləri ilə bağlı araşdırmalar aparan 217 alimin həyat və yaradıcılığı öz əksini tapmışdır. Bu ədəbi simaların, Azərbaycan alimlərinin dilçilik elminin inkişafında mövqeyi, həyatı, yaradıcılıq istiqamətləri ilə bağlı müəllif tərəfindən yazılmış məqalələr elmliyi ilə seçilir. Qədim inkişaf tarixinə malik zəngin dillərdən biri olan Azərbaycan ədəbi dilinin bugünkü yüksək inkişafında və elmi dil səviyyəsinə çatmasında bu alimlərin çox mühüm rolu olmuşdur. Azərbaycan dilində əsərlər yazan qüdrətli söz sənətkarlarının yetişməsi və onların ədəbi dilə gətirdiyi yeniliklər, dilin cəmiyyətin müxtəlif sahələrində tətbiqi əsas amillərdəndir. Bununla yanaşı ədəbi dilin üslubi cəhətdən diferensiallaşması, ana dilində tədris-təhsil ocaqlarının yaranması və Azərbaycan dilinin normativ leksik-qrammatik quruluşunun təsvirini verən dərsliklərin yazılması və s. göstərmək olar. Oxuculara təqdim olunan bu kitabda dilçilərin həyatı verilməklə yanaşı, onların müxtəlif sahələrlə bağlı yazdıqları əsərlər sistemli təhlil edilmişdir. Əsərin fəsilləri elmi-məntiqi baxımdan bir-birini tamamlayır, Azərbaycan dilçilərinin çoxaspektli, çoxcəhətli fəaliyyəti yüksək səviyyədə nəzərə çarpdırılır. Nəşrin önəmli cəhəti dilçilik elminin inkişafında mühüm rolu olan alimlərin fotoşəkillərinin olmasıdır. Onu da qeyd edək ki, kitab yüksək poliqrafik səviyyədə nəşr olunmuşdur. Müəllifin "Azərbaycan dilçiliyi simalarda" kitabı Azərbaycan dilçilərinin həyat və yaradıcılığının öyrənilməsində və gələcək nəsillərə çatdırılmasında dəyərli mənbədir.

**MİRVARİ İSMAYILOVA**
*filologiya elmləri doktoru, professor*